Arxivdən gələn səslər

# Qanlı tarix

**Repressiya illərində Azərbaycan ərazisindən 100 minə yaxın ziyalı, hərbçi, mədəniyyət və incəsənət xadimi, alim, yazıçı, müəllim, din xadimi Sibirə, Qazaxıstana və digər yerlərə sürgünə göndərilmişdir.**

Bununla da Azərbaycan cəmiyyətinin ağıllı, elmli, istedadlı, əməksevər, mənəviyyatlı təbəqəsinin çox böyük hissəsi məhv edilmişdir. Bu bir faktdır ki, əhalinin hər min nəfərinə düşən repressiya qurbanlarının sayına görə Azərbaycan keçmiş sovet respublikaları içərisində birinci yerdə durmuşdu. Əgər 20-ci illərdə birmənalı olaraq "əksinqilabçı" adı ilə cümhuriyyətçilər, yaxud müsavatçı və ittihadçılar məhv edilir, həbs olunub, Solovki adalarına göndərilirdisə, 1937-ci il repressiyası bir qədər qarışıq olmuşdur. Bu mərhələdə insanlar "xalq düşməni", "pantürkist", "sui-qəsdçi", "panislamist" adları altında məhv edilirdi.

Həmin dövrdə Azərbaycanda qətlə yetirilən insanlarla bağlı xüsusi plan hazırlanmışdı ki, o plana görə 3 ayda 1500 nəfərin güllələnməsi nəzərdə tutulurdu.

1937-ci və 1938-ci illərdə məhkəmədən kənar repressiyalar aparılmasına da qərar verilmişdi. Bütün ölkədə fəaliyyətə başlayan sessiya 15 dəqiqə ərzində dövlət ittihamçısının, vəkilin, bir çox hallarda müqəssirin iştirakı olmadan qərar çıxarmışdır.

Azərbaycanın Qazaxıstandakı səfirliyinin məlumatına görə, Stalin repressiyaları illərində Qazaxıstanda 150 min azərbaycanlı öldürülüb və bunlardan 28 min nəfəri məhkəmə və istintaq olmadan güllələnib.

***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 9 sentyabr.- S.11.